# COP29 Azərbaycanın yeni rakursda dünyaya təqdimatına fürsət verəcək

**BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinos iqlim dəyişikliyinə və bu qlobal problemin həlli yolunda hərəkətsizliyə görə dünyanın fəlakət astanasında olduğunu dilə gətirib.**

Planetin geosiyasi parçalanmanın girovuna çevrilə biləcəyindən narahatlığını ifadə edən BMT rəsmisi xüsusi olaraq bir məqama diqqət çəkib: "Unutmayaq ki, problemin həlli təkcə iqlimə deyil, iqtisadi rifaha və davamlı inkişafa da kömək etmək imkanı yaradır. İqlim dəyişikliklərini həll etmək planeti və həssas insanları qorumaq deməkdir".

COP29 bəşəriyyət ilə təbiət arasında sülhün bərqərar edilməsi üçün keçirilən möhtəşəm bir tədbirdir. Belə bir tədbirin ölkəmizdə keçirilməsi müasir Azərbaycanın tarixində əsl hadisədir.

Azərbaycan ərazilərinin 30 ilə yaxın bir dövrdə Ermənistan tərəfindən işğal olunması və çoxillik işğal dövründə həmin torpaqlarda ekologiyanın, biomüxtəlifliyin, yaşıllıqların vəhşicəsinə məhv edilməsi, yandırılması, təbii sərvətlərimizin talan olunması dünya ictimayyətinə bəllidir. Ermənistanın ölkəmizə təcavüzü zamanı transsərhəd çayların qarşısının alınması və çirkləndirilməsi, su anbarlarının baxımsızlıqdan qəzalı vəziyyətə düşməsi ilə ətraf rayonlarda yaşayış məntəqələrinin və yüzminlərlə əhalinin sudan məhrum edilməsi ekoloji terror idi.

Otuz ildən sonra Azərbaycan ərazilərini erməni işğalından azad etməklə təcavüzkar ölkənin davamlı ekoloji terroruna da son qoydu. Bu inkaredilməz fakt qarşısında qalan, hətta Azərbaycanla dost münasibətdə olmayan ölkələr belə, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası kimi mötəbər tədbirin ölkəmizdə keçirilməsi ilə əlaqədar yekdil qərar qəbul etdilər. Verilən qərar beynəlxalq ictimaiyyətin Azərbaycana böyük hörmət və etimadının, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

Özünün enerji müstəqilliyini tam təmin edən Azərbaycan, eyni zamanda artıq Avropanın enerji təhlükəsizliyinin başlıca təminatçılarından birinə çevrilib. Planetin xəritəsinə diqqət etsək görərik ki, dünyada zəngin enerji ehtiyatları olan ölkələrin sayı heç də az deyil. Məsələ burasındadır ki, onların əksəriyyəti bu təbii sərvətdən heç də inkişaf naminə yararlana bilməyib, əksinə, təbii sərvətləri əsl baş bəlalarına çevrilib. Azərbaycan isə neft-qaz ehtiyatlarından səmərəli istifadə etməklə dünyada uğurlu bir nümunənin əsasını qoyaraq neft kapitalını insan kapitalına müvəffəqiyyətlə çevirməyi bacaran bir ölkədir.

Hazırda ölkəmiz zəngin təbii ehtiyatlarından səmərəli istifadə etməklə beynəlxalq miqyasda enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan başlıca aktorlardan biridir. Azərbaycan milli maraqları ehtiva edən müstəqil siyasəti sayəsində miqyasına görə regional, əhəmiyyətinə görə isə qlobal xarakterli transmilli layihələrin mərkəzi oyunçusu kimi çıxış edir. Azərbaycanın neft-qaz ölkəsi kimi inkişafı, "yaşıl enerji" ilə bağlı layihələrin həyata keçirilməsinə, "yaşıl enerji" növlərinin yaradılması və onun dünya bazarlarına nəqlinə geniş imkanlar açır. COP29-un Azərbaycanda keçirilməsi həm ölkədə "yaşıl enerji" layihələrinə uğurlu xarici investisiyaların cəlb edilməsinə, həm də BMT-nin dayanıqlı inkişaf məqsədlərinə nail olunmasına bir addım da yaxınlaşdıracaq. "Yaşıl iqtisadiyyat"a keçid və "yaşıl enerji" təchizatçısına çevrilmək Azərbaycanın iqtisadi siyasətinin prioritetlərindəndir. Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü ilin ölkədə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi isə bu istiqamətdə təşəbbüsləri stimullaşdıran başlıca amildir.

Azərbaycanın əla külək və günəş resursları və biokütlə, geotermal və su-elektrik enerjisinin istehsalı üçün əhəmiyyətli potensialı var. Əsasən neft-qaz sektorunun inkişafı hesabına sürətlə böyüyən iqtisadiyyata malik olan və enerji istehsalının 90 faizdən çoxu yanacaq mənşəli olan ölkəmizin "yaşıl enerji"yə keçid etməsi perspektivdə iqlim dəyişikliyi ilə mübarizəyə önəmli töhfə verəcək. Hazırda bərpaolunan enerji mənbələri üçün ən yüksək potensiala malik işğaldan azad olunmuş ərazilərdə xüsusi proqramlar həyata keçirir.

Laçında, Kəlbəcərdə və Suqovuşanda bərpa edilən 20.2 MVt gücündə 4 su-elektrik stansiyası artıq istismara verilib. Eyni zamanda Cəbrayıl rayonu ərazisində, Araz çayı üzərində ümumi gücü Azərbaycan tərəfi üçün 140 MVt (100 MVt "Xudafərin", 40 MVt "Qız Qalası") olmaqla iki su-elektrik stansiyasının tikintisi davam etdirilir. Həmçinin Laçın-Kəlbəcər ərazisində təxmini olaraq 100 MVt gücündə tikintisi planlaşdırılan külək-elektrik stansiyası layihəsinin reallaşdırılması işğaldan azad edilmiş ərazilərdə "Yaşıl Enerji Zonası"nın yaradılmasına əlavə töhfə verəcək.

2020-ci ildən Azərbaycan "Masdar", "ACWA Power", bp, "Fortescue Future Industries", "China Gezhouba Group Overseas Investment", Total Energies, "Nobel Energy", "A-Z Czech Engineering" və "Baltech" şirkətləri ilə bərpaolunan enerji layihələri ilə bağlı əməkdaşlığa başlayıb. 2023-cü il oktyabrın 26-da BƏƏ-nin "Masdar" şirkəti ilə əməkdaşlıq çərçivəsində Xəzər regionunun və MDB məkanının ən böyük günəş-elektrik stansiyası olan 230 MVt gücündə "Qaradağ Günəş-Elektrik Stansiyası istifadəyə verilib. Stansiya 262 milyon dollar dəyərində xarici sərmayə hesabına tikilib və ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənayemiqyaslı ilk günəş-elektrik stansiyasıdır. Stansiyada hər il 500 milyon kVt - saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda atmosferə atılan karbon emissiyası 200 min ton azalacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyasında 570 min günəş paneli quraşdırılıb.

2022-ci il dekabrın 17-də Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan Hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Sazişə əsasən, Xəzər dənizində istehsal olunacaq "yaşıl enerji"nin Avropaya ixracı nəzərdə tutulur. 2023-cü il iyunun 1-də Energetika Nazirliyi ilə Çinin "China Gezhouba Group Overseas Investment" şirkəti arasında Azərbaycanda 2 QVt gücündə bərpaolunan enerji layihələrinin həyata keçirilməsinə dair Anlaşma Memorandumu imzalanıb. Naxçıvanda bərpaolunan enerji layihələrinin həyata keçirilməsi ilə bağlı "Nobel Energy Management", "TotalEnergies" və "A-Z Czech Engineering" şirkətləri ilə ümumi gücü 1000 MVt-dan çox olan "yaşıl enerji" layihələri ilə əlaqədar müqavilələr imzalanıb.

COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin dünyaya yeni rakursda təqdimatı fürsətini verəcək. Qətiyyətlə deyə bilərik ki, ölkəmiz yaxın gələcəkdə beynəlxalq aləmdə yalnız neft və qaz ixracatçısı kimi yox, həm də "yaşıl enerji" ixracatçısı kimi təqdim olunacaq.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

Azərbaycan. - 2024.- 11 avqust (№ 170).- S.6.